# Şuşa Azərbaycan xalqı üçün tarixi əhəmiyyətli şəhərdir

*1982-ci il 14 yanvar. Gözəl Şuşa yenə qonaqlı-qaralıdır. SSRİ Xalq artisti Lütfiyar İmanovun ifasında səslənən Vaqifin "Durnalar" şeirinə bəstəkar Cahangir Cahangirovun bəstələdiyi mahnının sədaları ətrafa yayıldıqca lopa-lopa yağan, hər yanı ağ örpəyə bürüyən qarın soyuğu da əriyib yox olur. Vaqifin məqbərəsinin açılışına toplaşanlar arasında Süleyman Rüstəm, Mirzə İbrahimov və başqaları var. Gələcəyin Prezidenti də açılışa gələnlər arasındadır. Yeni Poeziya evinin əhəmiyyətindən danışan Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev deyir: "Əlamətdar haldır ki, Şuşada Vaqifin məqbərəsinin təntənəli surətdə açıldığı gün Poeziya evi də açılmışdır, gərək çalışasınız ki, bu ev şəhərdə əsl poeziya mərkəzinə çevrilsin, şuşalıları, ilk növbədə də gəncləri, böyüməkdə olan nəsli... xalqlar dostluğu və qardaşlığı ruhunda tərbiyə etsin, onlara gözəllik hissi aşılasın".*




Ulu öndər ilk dəfə Şuşada hələ Azərbaycana rəhbər seçilməmişdən əvvəl, 1967-ci ildə olmuşdu. O vaxt Xankəndidə azərbaycanlılarla ermənilər arasında münaqişə olmuş, qan tökülmüşdü. Dağlıq Qarabağda olan millətçilər 3 nəfər azərbaycanlını vəhşicəsinə öldürmüşdülər. Həmin məsələni araşdırmaq üçün Azərbaycan SSR DTK-nın sədri 15 gün Dağlıq Qarabağda olmuş, eləcə də Şuşaya getmişdi. Şuşada olarkən hələ 1905-1907-ci, 1918-1920-ci illərdə ermənilərin təcavüzü nəticəsində dağıdılmış və yandırılmış evlərin bərpa edilmədiyini görmüşdü. O, Şuşa şəhərinin Azərbaycan xalqının böyük bir tarixi abidəsi, incisi kimi bərpa etdirilməsinin zəruriliyi qənaətinə gəlmiş və Bakıya qayıtdıqdan sonra şəhərin belə vəziyyətdə saxlanılmasının mümkünsüzlüyü barədə mülahizələrini Azərbaycan rəhbərlərinə bildirmişdi. 1969-cu ildə Azərbaycana rəhbər seçiləndən sonra ulu öndər Əliyev şəhərə çox böyük qayğı göstərərək onun inkişafına çalışırdı.

1970-ci illərin ikinci yarısında Heydər Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi ilə Şuşa şəhərinin inkişaf etdirilməsi məqsədilə bir neçə xüsusi qərar qəbul edildi. Eyni zamanda, Şuşanın statusu qaldırılaraq Ümumittifaq səviyyəli kurort şəhərinə çevrildi. Az sonra, 1977-ci ildə Şuşa şəhərini tarixi-memarlıq qoruğu elan edən qərar qəbul olundu. Ulu öndər Şuşanın mühafizə edilməsi, tarixi abidə kimi qorunub saxlanılması istiqamətində əsl vətənpərvərlik nümunəsi göstərir və hər zaman söyləyirdi: "Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir".

## *Dövlət başçısının imzaladığı sərəncamlar da bunu təsdiq edir*

Şuşanı abadlaşdırmaq, şəhərin başına gətirilən müsibətlərin izlərini ləğv etmək, eyni zamanda tarixi abidələri qoruyub saxlamaq və böyük bir muzeyə çevirmək üçün əhəmiyyətli işlər gördü.

Azərbaycanın qədim mədəniyyət mərkəzi kimi Şuşa şəhərinin tarixi keçmişini yaxşı bilən Heydər

**(davamı 3-cü səhifədə)**

# Şuşa Azərbaycan xalqı üçün tarixi əhəmiyyətli şəhərdir

## Dövlət başçısının imzaladığı sərəncamlar da bunu təsdiq edir

(əvvəli 1-ci səhifədə)

Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun 2020-ci il noyabrın 8-də Şuşa şəhərini azad etməsi böyük zəfərimizi təmin etdi.

2021-ci il 14 yanvar. Azərbaycan Prezidenti İlham Əliyevin Şuşaya səfəri. 39 il əvvəl bu qədim şəhərə son səfərindən fərqli olaraq o, bu dəfə buraya dövlət başçısı, həm də qalib lider kimi gəlmişdi: "Biz buraya qalib kimi gəlmişik, bayrağı da qaldırmışıq. Azad edilmiş bütün torpaqlarda Azərbaycan bayrağı dalğalanır. Döyüşə-döyüşə gəlmişik", - deyən Prezident Şuşanın bərpa edilməsi istiqamətində işlərə başlanılması barədə göstərişlərini verdi. 2021-ci il mayın 7-də dövlət başçısı Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında Sərəncam imzaladı. Sərəncamda deyilir: "Tarixi-mədəni əhəmiyyəti və Azərbaycan xalqı üçün müstəsna mənəvi dəyərə malik olması Şuşaya xüsusi qayğı və həssaslıqla yanaşılmasını zəruri edir. Bu baxımdan, Şuşada dövlət idarəetməsinin və hüquqi tənzimləmənin daha da təkmilləşdirilməsi şəhərdə tarixi-mədəni irsin bərpasına və qorunub saxlanılmasına xidmət etməklə yanaşı, onun daim inkişafına şərait yaradacaqdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Şuşa şəhərinin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və mənəvi dolğun mədəni həyatına qovuşması, eləcə də Azərbaycanın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin parlaq incisi kimi beynəlxalq aləmdə təbliği məqsədilə qərara alıram:

1. Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan edilsin".

2021-ci il iyunun 15-də Şuşa şəhərində "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında" Şuşa Bəyannaməsi imzalandı. Şuşa Bəyannaməsi iki qardaş ölkə arasında münasibətlərin hüquqi əsaslarının daha da möhkəmləndirilməsinə yol açır. Bu baxımdan Şuşa Bəyannaməsi müstəsna siyasi və tarixi əhəmiyyət daşıyır. Bəyannamə iki ölkə arasında əlaqələri ən yüksək səviyyəyə qaldırdı və bütün dünya bu reallığın şahidi oldu. Şuşa Bəyannaməsi keyfiyyətcə daha yüksək işbirliyinin təminatıdır. Təsadüfi deyil ki, Şuşada Türkiyə lideri ilə Bəyannamə imzalayarkən Azərbaycanın dövlət başçısı Qars müqaviləsini xatırladaraq bildirdi ki, bu, yüz ildən sonra böyük siyasi əhəmiyyət daşımaqdadır. Bu günümüz və sabahımız üçün strateji əhəmiyyət daşıyan Bəyannamə Azərbaycan və Türkiyənin müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı kimi milli maraqlara söykənən məsələlərdə qarşılıqlı yardım sahəsində əməkdaşlığın istiqamətidir.

Bəyannamənin imzalanma mərasimində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan isə çıxışında demişdir: "Bölgədə təsiri olan hər kəsi həqiqətləri görməyə, Azərbaycan xalqının zəfərini qəbul etməyə və gələcəyə baxmağa dəvət edirik". Bununla da Türkiyə Prezidenti bölgədə sabitliyi təmin edəcək altılı platformanın regiona sülh gətirəcəyini qeyd etmiş, hər kəsi nifrət və təhrik siyasətindən əl çəkərək sülh və əməkdaşlığı təşviq edən sabitliyə qoşulmağa çağırmışdı.




2022-ci il yanvarın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Respublikasında 2022-ci ilin "Şuşa ili" elan edilməsi haqqında Sərəncam imzaladı. Sərəncamda deyilir: "Şuşa zəfərindən dərhal sonra şəhərdə infrastrukturun qurulması ilə yanaşı, tarix və mədəniyyət abidələrinin bərpasına başlanılmış, quruculuq işlərinin təşkilində çevikliyin, səmərəliliyin təmin olunması üçün burada dövlət idarəetməsinə böyük diqqət yetirilmiş, Şuşa şəhəri Dövlət Qoruğu İdarəsi yaradılmışdır.

Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşada bu gün şəhərin tarixi simasının bərpası yönündə nəhəng layihələr gerçəkləşdirilir. Qısa müddətdə Şuşanın Baş planının hazırlanması, qüdrətli şair Molla Pənah Vaqifin büstünün və muzey-məqbərə kompleksinin öz ilkin görkəminə qaytarılması, Bülbülün ev-muzeyinin və Üzeyir Hacıbəylinin heykəlinin açılışları, habelə buradakı tarixi, dini və memarlıq abidələrinin bərpası prosesi ölkəmizin mədəniyyət paytaxtındakı kompleks işlərin tərkib hissəsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Şuşanın Azərbaycan xalqı üçün tarixi əhəmiyyətini, mədəni-mənəvi dəyərini nəzərə alaraq qərara alıram:

1. 2022-ci il Azərbaycan Respublikasında "Şuşa ili" elan edilsin".

Bu gün artıq işğaldan azad edilmiş torpaqlarda ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə böyük vüsətlə quruculuq işləri aparılır. Şuşalıların doğma yurdlarına qayıdışını təmin etmək üçün şəhərdə bütün zəruri işlər görülür.

2022-ci ilin "Şuşa ili" elan edilməsi o deməkdir ki, il ərzində əsas diqqət və resurslar ölkəmizin mədəniyyət paytaxtı olan Şuşanın və ətraf ərazilərin bərpasına, yenidən qurulmasına yönəldiləcək.

"Şuşa ili" çərçivəsində daha bir əlamətdar hadisə oldu. Bu il fevralın 1-də Milli Məclisin yaz sessiyasının ilk plenar iclasında "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında" Şuşa Bəyannaməsi təsdiq edildi.

Şuşa Bəyannaməsini Türkiyə parlamenti də təsdiqlədi. "Şuşa ili"ndə Şuşa Bəyannaməsinin hər iki ölkənin qanunverici orqanı tərəfindən təsdiqlənməsi ortaq təhlükəsizliyimizin təmin olunması və ikitərəfli çoxşaxəli münasibətlərin inkişafı baxımından böyük önəm daşıyır.

Bəli, Şuşa Bəyannaməsi Azərbaycan ilə Türkiyənin qardaşlığını bütün dünyaya nümayiş etdirən bir mesajdır. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Bəyannamənin imzalanma mərasimində dediyi kimi: "Bundan sonra güclənən bir Azərbaycan, güclənən bir Türkiyə vardır".

Şuşa ilə bağlı verilən sərəncamlar, imzalanan tarixi sənədlər isə bu şəhərin Azərbaycan xalqı üçün böyük əhəmiyyətə malik olduğunu bir daha təsdiqləyir.

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**

Respublika.- 2022.- 11 mart.- S.1;3.